# *PSİXOLOGİYA, YAŞ FİZİOLOGİYASI VƏ İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ*

UOT 376.

**_Dilarə Əlimuxtar qızı Dostuzadə_**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*

## TƏLİM PROSESİ ZAMANI EŞİTMƏSİ QÜSURLU UŞAQLARIN ÖYRƏNİLMƏSİ

**_Дилара Алимухтар гызы Достузаде_**
*доктор философии по педагогике, доцент,*
*ведущий научный сотрудник Института Образования*
*Азербайджанской Республики*

## ИЗУЧЕНИЕ ДЕТЕЙ С ПРОБЛЕМАМИ СЛУХА В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

**_Dilara Alimukhtar Dostuzade_**
*doctor of philosophy in pedagogy, associate professor,*
*leading researcher of the Institute of Education*
*of the Republic of Azerbaijan*

## STUDY OF CHILDREN WITH HEARING PROBLEMS IN THE COURSE

**Xülasə.** Məqalədə gənc nəslə, yuxarıda qeyd etdiyimiz biliklərə yiyələnmə prosesində, müsbət keyfiyyətləri aşılamaqda təlimin digər prinsipləri ilə yanaşı, fərdi yanaşma prinsipinin də rolu böyükdür. Fərdi yanaşma prinsipi həm əxlaq tərbiyəsində, həm də təlim prosesində tətbiq olunduğundan, digər prinsiplərə nisbətən onun hüdud dairəsi daha genişdir. Fərdi yanaşma prinsipi hər bir şagirdin ahəngdar inkişafına, biliyində, əxlaqında nəzərə çarpan qüsurları vaxtında aradan qaldırmağa imkan verir.
***Açar sözlər**: eşitməsi qüsurlu, fərdi yanaşma, məktəb, müəllim-tərbiyəçi, ailə.*

**Резюме.** В статье говорится о большем значении индивидуального подхода в процессе обучения детей с проблемами слуха. Индивидуальный подход в процессе обучения позволяет формированию положительных качеств у детей данной категории. Еще, помимо сказанного выше, необходимо отметить положительное влияние индивидуального подхода на общее развитие и устранение имеющих дефектов.
***Ключевые слова**: недостатки слуха, индивидуальный подход, школа, учитель-воспитатель, семья.*

**Summary.** The article speaks about the greater importance of the individual approach in the process of teaching children with hearing problems. Individual approach in the course of training allows the formation of positive qualities in children of this category. Besides the above mentioned, it is necessary to note the positive influence of the individual approach to the general development and elimination of the defects.
***Keywords**: hearing, individual attitude, school, teacher-educator, family*

Fərdi yanaşma hər bir uşağın psixofizioloji xüsusiyyətini, onun xarakterik əlamətlərini, temperamentini, qavrayış və yaddaşını, diqqətini və s. nəzərə almağı tələb edir. Bu xüsusiyyətləri öyrənmək müəllimə məqsədyönlü kollektiv təşkil etməyə imkan verir.

Fərdi yanaşma zamanı eşitməsi qüsurlu şagirdlərin öyrənilməsi və öyrənmə əsasında tərtib edilmiş pedaqoji və psixoloji xarakteristikalar mühüm əhəmiyyət kəsb edir. Müşahidələr göstərir ki, məktəblərdə tərtib olunmuş xarakteristikalar həmişə qarşıya qoyulmuş məqsədə cavab vermir. Şagirdlərin öyrənilməsində müəllimlər bəzən elə səhvlərə yol verirlər ki, bunlar fərdi yanaşma işini çətinləşdirir (1).

Bu səhvlər aşağıdakılardır:

1. Şagird haqqında əvvəlcədən fikir söyləmək, çox vaxt fəal şagirdi qeyri-fəal kimi xarakterizə etməklə tamamlanır.

2. Şagirdin şəxsiyyətinin formalaşdığı şəraiti nəzərə almadan öyrənmək.

3. Şagirdi tanımaq xatirinə öyrənmək.

4. Şagirdi uşaq kollektivindən təcrid edib öyrənmək.

Müəllim eşitməsi qüsurlu şagirdi ətraflı öyrənməsə, onun uşağa yanaşması səmərəsiz olar. Məsələn:

a) Uşaq qapalı davranar və özünə inamsız olar. Müəllim ona təsir göstərməkdə çətinlik çəkər.

b) Uşaqda tərslik yaranar və o, müəllimin tələblərinin əksinə hərəkət edər.

c) Uşaqda inamsızlıq yaranar, onun oxumaq həvəsi azalar.

d) Şagird kollektivinin yad üzvinə çevrilə bilər.

Fərdi yanaşma eşitməsi qüsurlu olan şagirdin fərdi xüsusiyyətindən irəli gəlməlidir. Məsələn, bütün şagirdləri inandırma metodu ilə tərbiyə etmək mümkün deyil, dikbaş uşağa, söz az təsir edir. Bu uşaqların hər birinin özünəməxsus fərdi xüsusiyyətləri var. Bunlar öz növbəsində onlarla aparılan təlim-tərbiyə işlərinin təşkilinə ciddi təsir edir.

Müəllim şagirdlərin fərdi xüsusiyyətlərini öyrəndikdən sonra, onlara fərdi yanaşmaqda çətinlik çəkməz. Belə yanaşma hər uşağı təlim prosesində müntəzəm olaraq müşahidə etmək nəticəsində əldə edilə bilər.

Apardığımız müşahidə və tədqiqat işləri göstərir ki, fərdi fərqlər təlim prosesində daha qabarıq şəkildə nəzərə çarpır.

Keçilən mövzunu şagirdlərdən biri tez, digəri gec mənimsəyir. Materialı gec mənimsəyənlər əsasən qavrama prosesində çox vaxt tələb edən şagirdlər olur. Belə şagirdlər əsas etibarilə materialı gec mənimsədiklərinə görə, sinfin fəaliyyətinə də vaxtında qoşula bilmirlər. Fərdi yanaşma prinsipi vaxtında tətbiq edilməzsə, şagirdlər təlimdən geri qalarlar (2).

Nəzərə almaq lazımdır ki, hər sinifdə elə qabiliyyətli şagirdlər var ki, onlar müstəqilliyə çalışmır, təlim fəaliyyətinə qoşulmur və ciddi səy etmirlər. Digər qabiliyyətli şagirdlər isə yaxşı səy göstərir, gərgin əmək sərf edir, fəallarla daim ayaqlaşırlar. Elə şagirdlər də var ki, onlar dalğındır, kifayət qədər diqqətli olmur, gərgin əmək sərf etməkdən çəkinir və iradəcə zəif olurlar.

Bunları nəzərə alaraq, fərdi yanaşma təlim prosesində bütün şagirdlərə tətbiq edilir. Müəllim şagirdlərin maraq və meyillərini öyrəndikdən sonra, onların irəli getməsi üçün daha faydalı yollar müəyyən edir. Təlimdə orta mövqe tutanların səyini artırır, geri qalanların zəif cəhətlərini aradan qaldırır (3).

Beləliklə, fərdi yanaşma təlimi ayrı-ayrı şagirdlərin fərdi xüsusiyyətlərinə uyğunlaşmağı tələb etmir, əksinə, fərdi yanaşma sinifdə hər kəsin yaxşı oxumasına müsbət təsir göstərir, bunun köməyi ilə bütün şagirdlər dərin biliyə yiyələnirlər.

Eşitməsi qüsurlu uşağın nə vaxt kar olduğu, hansı xəstəliklər və zədələnmələr keçirdiyini müəllim öyrəndikdən sonra, həmin uşaqlara fərdi yanaşmanı düzgün təşkil edə bilər.

Dil iki mühüm vəzifəni yerinə yetirir. Birinci əsas ünsiyyət, ikinci isə təfəkkür alətidir. Buna görə də, kar uşaqları elə öyrətmək lazımdır ki, onlar öz fikirlərini ifadə etsinlər və ətrafdakılar onları başa düşsünlər. Təlim prosesində uşaqlarda nitqin müxtəlif formaları şifahi və yazılı daktil formalaşır. Nitqin bu formaları arasındakı qarşılıqlı əlaqə çox mürəkkəbdir. Təlim mərhələsində yaşdan asılı olaraq nitqin bu növlərindən daha çox istifadə olunur.

Mimiki-jest nitqindən təlimin ilk mərhələsində istifadə (karlarda) daha çox lazımdır. Lakin bu heç də karların əsas təlim vasitəsi ola bilməz. Belə təlim forması sözlü nitq olmalıdır. Eşitməsi qüsurlu uşaqlarda sözlü nitqin formalaşdırılması, təlimin prinsipi kimi çıxış edir. Uşaqlarda nitqin formalaşması prosesində minimum fəal və passiv sözlərin mənimsənilməsi mühüm yer tutur. Bu şagirdlərin nitqini inkişaf etdirmək və onlarda oxu vərdişləri yaratmaq üçün aşağıdakılar nəzərə alınmalıdır:

1) oxunacaq mətnin məzmununun və çətin sözlərin izah edilməsi;

2) oxunmuş mətndəki ayrı-ayrı ifadələrin məzmununu sual-cavabla möhkəmləndirilməsi;

3) lüğət işi üzrə xüsusi məşğələlərin təşkili;

4) hər uşağın sözü nə dərəcədə başa düşməsinin müəyyənləşdirilməsi.

Tədqiqatdan aydın olur ki, müntəzəm çalışmalar aparıldıqda, şagirdlər belə vərdişə tezliklə yiyələnə bilirlər. Lakin onlar, cümlədə, qoşma, bağlayıcı və nidaları bir-birindən ayıra bilmirlər. Bu dövrdə eşitməsi qüsurlu uşaqlara sözləri ayrı-ayrı səslərlə deyil, səlis hecalarla oxumağı öyrətmək lazımdır. Bu zaman uşaqlarda düzgün oxu vərdişləri fərdi qaydada yaranır.

Oxu vərdişinin yüksək inkişaf səviyyəsinə şagirdlər birdən-birə yiyələnmir. Uşaqların ana dili vasitəsilə qazandıqları biliklərin müşahidə və təcrübədən əldə etdikləri biliklər, əsasında düzgün və qarşılıqlı əlaqə yaratmasını tələb edir. Ana dilini düzgün öyrənməkdə, eşitməsi qüsurlu uşaqlara elmi-kütləvi mətnlərin oxusu ilə əlaqədar ekskursiya, gəzinti, müşahidə, əşya dərsləri, təcrübi işlərin təşkili böyük kömək göstərir.

Ana dilini öyrənərkən təbiətşünaslıq, tarixi və coğrafi hadisələr uşaqlara çox kömək edir. Uşaqlar bitkilər və heyvanlar aləmi üzərində müşahidə aparır, təcrübə qoyur, sxemlərə və şəkillərə baxır, məktəbin tədris və təcrübə sahəsində işləyir, ekskursiya zamanı öyrəndikləri əşyalar üzərində, öz fikirlərini nağıl etməyi öyrənirlər. Beləliklə, eşitməsi qüsurlu uşaqlarda nitq inkişafı möhkəmlənir və söz ehtiyatı zənginləşir.

Eşitməsi qüsurlu uşaqlar ibtidai siniflərdə oxu vərdişlərini düzgün, şüurlu və ifadəli oxu vasitəsilə əldə edə bilirlər. Oxunun bir neçə növü üzərində şagirdlərdə oxu vərdişini inkişaf etdirmək məsləhətdir.

Oxunun düzgünlüyü, şüurluluğu, sürəti, ifadəliliyi, sinifdə sərbəst oxu, təkrar oxu, bədii əsərlərin oxusu, hekayələrin oxusu, nağılların oxusu, şeirlərin oxusu, sinifdənxaric oxu və s.

Təlimdə fəallıq sayəsində məktəblilər elmlərin əsasını mənimsəyir, elmi-texniki biliklər, bacarıq və vərdişlərlə silahlanır, bədəncə sağlam, qüvvətli, gümrah böyüyür və eyni zamanda onların fiziki qüvvəsi və əmək qabiliyyəti daim inkişaf edir. Məktəblinin zehni, mənəvi inkişafı üçün onun görəcəyi aləm, canlı təbiət, cəmiyyət üzvləri və hadisələri ilə sıx ünsiyyətdə olması zəruridir. Bu zaman məktəblidə şüurla birlikdə nitq və danışıq qabiliyyəti formalaşır.

Əyani təlim uşaq təbiətinin özündədir. Eşitməsi qüsurlu uşaqlar formalar, səslər və rənglərlə düşünür. Əyanilik prinsipinin əsasını İ.P. Pavlovun I və II siqnal sisteminin qarşılıqlı əlaqəsi təşkil edir. Uşağın nitq və təfəkkürünün inkişafı üçün birinci siqnal sistemi mexanizminin fəal funksiyası lazımdır. Siqnallar ilk növbədə insan təfəkkürünü qidalandırır, onu zənginləşdirir. Eşitməsi qüsurlu uşaqları biliklərlə zənginləşdirmək üçün təlim prosesində sözlə əyaniliyin vəhdətinin təmin edilməsi zəruridir.

Təlim materialının qavranılmasında əşyaların göstərilməsi mühüm rol oynayır. Uşaqlar əşyanı, onun maketini, modelini görür və asanlıqla yadda saxlayırlar. Əyanilik uşaqlarda konkret, mücərrəd, ümumiləşdirilmiş anlayışların formalaşmasına səbəb olur. Bu, uşaqlar gördükləri əşyaları, onların əlamətlərini asanlıqla yadda saxlaya bilirlər. Müəyyən edilmişdir ki, sağlamlıq imkanları məhdud uşaqlarla fərdi məşğul olmanın psixoloji xüsusiyyətləri, bütün həyat boyu eyni qalır.

Məktəbə daxil olan eşitməsi qüsurlu uşağın müəyyən həyat təcrübəsi var. Bunu o, öz praktik fəaliyyətində qazanmışdır. Lakin uşaq bu təcrübədə qazandıqlarından nitqində istifadə etməkdə çətinlik çəkir. Müəllim təlim materialını izah edərkən uşaqların əvvəlcədən, mənimsədikləri biliklərə istinad edir. Bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi uğrunda mübarizə aparmaq hər bir müəllimin borcudur. Bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsinin birinci şərti təkrardır. İkinci şərti müxtəlif praktik işlərin təşkilidir. Üçüncü şərt bilik, bacarıq və vərdişlərin təcrübəyə tətbiqidir.

Beləliklə, eşitməsi qüsurlu uşağın danışıq imkanları məktəbdə öyrəndiyi söz ehtiyatı ilə məhdudlaşmır. Bu uşaqlarda məqsədli yadda saxlama mühüm rol oynayır. Xüsusi məktəbin ibtidai sinif müəllimləri ilk vaxtlar tədris materiallarının möhkəmləndirilməsində məqsədsiz yadda saxlamaya istinad edirlər. Bu zaman müəllim uşaqlarda hiss və maraq oyatmaqla materialın başa düşülməsinə nail olur. Uşaqlarda məqsədli, iradi yadda saxlamanı inkişaf etdirmək lazımdır.

Məqsədli yadda saxlama yalnız dərs materialını yaxşı öyrənmək üçün deyil, sonrakı dövrlərdə də materialın yaddaşda möhkəmlənməsi zəruridir. Məktəblilərdə məqsədli yadda saxlamanın inkişafı üçün müəllimin onlara daim qayğı göstərməsi lazımdır. Məktəblilərdə yadda saxlamanı inkişaf etdirməklə biz, istər-istəməz iradə qüvvəsinin inkişafına təsir etmiş oluruq.

Hər sinifdə 12-16 şagird var. Bu şagirdlərin fərdi xüsusiyyətini eyni zamanda nəzərə almaq mümkün deyildir. Buna görə də, müəllim şagirdləri mənimsəmə səviyyəsinə görə müvəqqəti olaraq, qruplara bölür və hər qrup öz səviyyəsinə görə tapşırıq alır. Müəllim sinfi qruplara böldükdən sonra, qrupdakı şagirdlərin hər birinin fərdi xüsusiyyətini nəzərə almalı, biliyini və

dünyagörüşünü müəyyənləşdirdikdən sonra fərdi yanaşma prinsipini tətbiq etməlidir.

Fərdi yanaşma prinsipi təlimin müxtəlif mərhələlərində həyata keçirilir.

Müəllim yeni mövzuya hazırlaşarkən, şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun olaraq, keçmiş mövzunun necə mənimsənildiyini öyrənmək üçün sorğu zamanı şagirdlərə hansı sualla müraciət edəcəyini, kimdən dərsi soruşacağını, sorğu kartoçkaları ilə kimin işləyəcəyini, daha güclü şagirdlərə əlavə tapşırıq verəcəyini və s. məsələləri nəzərə almalıdır.

Qabaqcıl müəllimlər yeni mövzunun öyrədilməsinə başlamazdan əvvəl, ayrı-ayrı şagirdlərin zəif və qüvvətli cəhətlərini müəyyənləşdirdikdən sonra, onların biliklərindəki kəsirləri aradan qaldırmağa kömək edir.

Qeyd etməliyik ki, müəllimin fərdi işi bununla bitmir, o, bu işi şagirdin fəaliyyəti prosesində, dərsin bütün mərhələlərində davam etdirməlidir.

Şagirdin müvəffəqiyyətli təlimində onun əvvəlki, biliyinin səviyyəsini öyrənmək mühüm əhəmiyyət kəsb edir. Bunun üçün müəllim şagirdin biliyindəki müsbət cəhətləri və çatışmazlıqları dəqiq müəyyənləşdirməlidir. Bilikdəki çatışmazlıqları dəqiq müəyyənləşdikdən sonra fərdi iş verilir: “Bu qaydanı təkrar et!”, “Tapşırığı yaz!”, “Məsələ və misalı həll et!” və s.

Müəllim yeni mövzunun izahına başlamazdan əvvəl, keçilənləri sual-cavabla yada salmalı olur. Belə olmazsa ayrı-ayrı şagirdlərin biliyindəki geriliyi aradan qaldırmaq olmaz. Əgər, şagirdlər keçmiş mövzuları yaxşı mənimsəməmişlərsə, müəllim həmin mövzuları təkrar öyrənməyi tapşırmalıdır. Deməli, müəllim yeni mövzunun öyrədilməsi ərəfəsində fərdi yanaşma, fərdi tapşırıqlar yolu ilə keçmiş bilikdəki kəsirləri aradan qaldırır.

Beləliklə, müəllimin ayrı-ayrı şagirdlərin biliyində fərdi xüsusiyyətlərə uyğun olaraq əvvəlcədən suallar düşünməsi, tapşırıqlar müəyyən etməsi, kimdən soruşacağını dəqiqləşdirməsi həlledici əhəmiyyətə malikdir. Xüsusi məktəblərdə keçilən fənlərin tədrisində buna geniş imkan vardır.

Eşitməsi qüsurlu şagirdlərin fərdi xüsusiyyətlərindən asılı olaraq, müəllim sinifdə biliyin təkrarı və təcrübədə tətbiqi zamanı fərdi yanaşdığı kimi, evə tapşırıq verərkən də ayrı-ayrı şagirdlərin biliyindəki fərdi fərqləri nəzərə almalıdır.

Dərsin başqa mərhələsində olduğu kimi, möhkəmləndirmə və biliyin təcrübədə tətbiqi mərhələsində də müəllim, yeri gəldikcə şagirdlərə müsbət təsir göstərməli, təlimi tərbiyə ilə əlaqələndirməlidir. Belə qarşılıqlı təsir şagirdlərin psixi proseslərinin, fərdi psixi xüsusiyyətlərinin, habelə təlim sahəsində işgüzarlığının formalaşmasında mühüm rol oynayır.

Çox zaman yetirməyən şagirdlər məktəbdə böyük intizamsızlıqlar törədirlər. Onlar məktəbliyə yaraşmayan hərəkətlərlə məşğul olur, sinfin ümumi işinə mane olurlar. Təlimdə bu müvəffəqiyyətsizlik onların əxlaqına, hərəkət və davranışına mənfi təsir göstərir.

Təlimə məsuliyyət hissinin olmaması üzündən, şagird pis oxuyur, öz geriliyini aradan qaldırmağa səy etmir. Bu zaman yaranan mənfi hisslər şagirdi müəllimlər və yoldaşları ilə münaqişəyə girməyə sövq edir. Belə şəraitdə təlim prosesi öz tərbiyəedicilik mahiyyətini itirir, şagirdin şəxsiyyətinin formalaşmasına lazımi təsir göstərmir.

Əgər şagird sağlamdırsa və dərsə müntəzəm gəlirsə, onun təlimində baş verən müvəffəqiyyətsizlik, təlim-tərbiyə sahəsində buraxılan hər hansı bir qüsurla izah edilməlidir. Məktəbdə təlim-tərbiyə işləri düzgün qurulduqda, çatışmazlığın vaxtında aradan qaldırılmasına hər bir şagirdin müvəffəq qiymət almasına nail olmaq mümkündür.

Şagirdlərin təlimdə yetirməməsi müxtəlif səbəblərdən izah edilir. Məsələn, müəllimin pedaqoji fəaliyyətindəki qüsurlar, şagirdin təlimə münasibəti, tətbiq edilmiş təlim metodlarının qüsurluluğu, tədris vasitələrindəki çatışmazlıq, proqramların lazımi səviyyədə tərtib edilməməsi, ailədə baxımsızlıq və s.

Geridə qalma ilə mübarizə aparan müəllimlərin fəaliyyətində fərdi yanaşma prinsipi mühüm yer tutur. Onlar bu prinsipi müvəffəqiyyətlə həyata keçirmək nəticəsində, şagirdlər tərəfindən biliyin möhkəm mənimsənilməsinə, hər bir uşağın təlim məsuliyyətinin artırılmasına və ailədə uşağın tərbiyəsinin düzgün təşkil edilməsinə nail olurlar. Onlar şagirdlərin təlim-tərbiyəsi üçün vaxt azlığından şikayətlənmirlər. Bu, onunla izah edilir ki, belə müəllimlər vaxta qənaət edir, şagirdlərin bilik və bacarığının qeydini dəqiq aparır, bu məqsədlə “Şagirdlər üzərində müşahidə” dəftəri saxlayırlar.

Qabaqcıl müəllimlər dərsdə yeni materialı izah etməklə bərabər, şagirdlərin müstəqil işlərini də təşkil edir, zəiflik göstərənləri həmişə diqqət mərkəzində saxlayır, onlarla fərdi iş aparırlar (4).

Şagirdlərin hərtərəfli inkişafında sinifdənxaric işlərin özünəməxsus rolu vardır. Dərsdə olduğu kimi, sinifdənxaric işlərdə də şagirdlərin fərdi xüsusiyyətini nəzərə almağın, kollektiv fəaliyyət prosesində, kollektivi ahəngdar, mütəşəkkil surətdə yetişdirmək, elmi biliklərə yiyələndirmək üçün hər bir şagirdə fərdi yanaşmağın böyük əhəmiyyəti vardır.

Məktəblərimizdə xüsusi təhsilin məzmunu təkmilləşdirilir, fənlər üzrə yeni proqramlar işlənib tətbiq edilir və təlim-tərbiyə sahəsində daha səmərəli metodlar sınaqdan çıxarılır. Belə köklü dəyişikliklər sinifdənxaric və məktəbdənkənar işlərdə əsaslı dəyişiklər yaratmağı tələb edir.

Adətən sinifdənxaric iş sinifdə aparılan tədris işi ilə üzvi surətdə bağlı olur, onu təkmilləşdirir və tamamlayır, lakin özünün metod, forma və məzmunu ilə dərs prosesindən fərqlənir. Şagirdlər biliyi yalnız dərs prosesində deyil, həm də sinifdənxaric tədbirlər prosesində alırlar.

Sinifdənxaric iş məktəbin ümumi təlim-tərbiyə işinin ayrılmaz tərkib hissəsidir. Bu işin düzgün təşkili, hər bir şagirdin təlim müvəffəqiyyətinin artmasına kömək edir, maraq və meylinə müvafiq müxtəlif məşğələ və əyləncə növü seçməsinə imkan yaradır, yaradıcılığını inkişaf etdirir, biliyindəki geriliyi aradan qaldırmaqda, keçilənləri şüurunda möhkəmləndirməkdə müstəsna rol oynayır.

Dərs prosesində keçirilən təlim işi ilə sinifdənxaric təlimdə müəyyən oxşar və fərqli cəhətlər vardır. Sinifdənxaric işə aid məcburi dövlət proqramları yoxdur. Bu məqsədlə yazılan proqramlar məsləhət xarakteri daşıyır. Müəllim məşğul olduğu şagirdlərin biliyindən, fərdi xüsusiyyətindən asılı olaraq, bu proqramlardan istifadə edir.

Dərs zamanı təlim işi əsasən müəllimin rəhbərliyi altında müəyyən vaxt ərzində gedir. Sinifdənxaric işdə isə şagirdin təlim fəaliyyəti başqa xarakter daşıyır.

Bu ayrı-ayrı şagirdlərə fərdi yanaşmaq üçün müəllimə geniş imkanlar verir. Sinifdənxaric işlər uşağın biliyindəki üstün olan cəhətləri inkişaf etdirmək və çatışmazlıqları aradan qaldırmaqda daha güclü təsir qüvvəsinə malikdir (5).

Gənc nəslə, yuxarıda qeyd etdiyimiz biliklərə yiyələnmə prosesində, müsbət keyfiyyətləri aşılamaqda təlimin digər prinsiplərilə yanaşı, fərdi yanaşma prinsipinin də rolu böyükdür. Fərdi yanaşma prinsipi həm əxlaq tərbiyəsində, həm də təlim prosesində tətbiq olunduğundan, digər prinsiplərə nisbətən onun hüdud dairəsi daha genişdir.

Təcrübə göstərir ki, bəzi müəllimlər fərdi yanaşma prinsipinin tətbiqində mühüm olan fərdi keyfiyyətlərin öyrənilməsi metodikasına dərindən yiyələnməyiblər. Onlar ayrı-ayrı şagirdlərin fərdi keyfiyyətlərini, biliyindəki üstün və zəif cəhətləri dəqiq müəyyənləşdirmədən təlim işi aparırlar. Bu da əsasən müvəffəqiyyətsizliklə nəticələnir.

Uşaq yaşa dolduqca, onun fərdi keyfiyyətləri inkişaf edir və formalaşır. Müəllim, təlim işində bu xüsusiyyətləri nəzərə almaqla, uşaqda olan müsbət cəhətləri inkişaf etdirmək və mənfi cəhətləri aradan qaldırmaq üçün fərdi yanaşma metodundan geniş istifadə etməlidir.

**Məqalənin elmi yeniliyi**. Məqalədə eşitməsi qüsurlu uşaqların şəxsiyyət kimi formalaşmasında, sağlamlığının qorunmasında, nitqinin möhkəmlənməsində, sağlam həyat tərzinin yaxşılaşması işi, onlara fərdi yanaşma prosesində nəzərə alına bilər.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədə irəli sürülən təkliflər və nəticələr eşitməsi qüsurlu uşaqlara fərdi yanaşmaqla, sağlam həyat tərzini formalaşdırmaq işi, təlim-tərbiyə prosesində nəzərə alına bilər.

**Ədəbiyyat:**

1. И. Павлов. Полное собирание трудов. М., 1956.
2. Н.К. Крупская. Избранные педагогические произведения. М.: Изд-во АПИ РСФСР, 1948.
3. Педагогическая энциклопедия. Т. 2. М.: Советская энциклопедия, 1965.
4. S. Axundov. Təlim prosesində şagirdlərə fərdi yanaşma. Bakı: Maarif, 1975.
5. Məktəb və müəllim haqqında partiya və hökumət qərarları. Bakı: Azərnəşr, 1952.

**E-mail:** d.dostuzade@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **F.B. Sadıqov**, *dos.***T. H. Ağayeva**

**Redaksiyaya daxil olub:** 26.09.2019